ANİMAFİLM
BEYNƏLXALQ ANİMASİYA FESTİVALI
INTERNATIONAL ANIMATION FESTIVAL

# REQLAMENT

## 7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı

**Festivalın təsisçisi və təşkilatçıları**
ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı 2018-ci ildə "PERİ FİLM" MMC tərəfindən təsis olunub.

ANİMAFİLM festivalının təsisçisi və təşkilatçısı "PERİ FİLM" MMC-dir (VÖEN 2004815851). Ünvan: AZ1026, Bakı şəhəri, Xətai rayonu, Sadıqcan küçəsi, 2934-cü məhəllə, 5-ci korpus, ev 2A, mənzil 24.

2022-ci ildən etibarən festival Azərbaycan Animasiya Assosiasiyası ictimai birliyinin birgə təşkilatçılığı ilə keçirilir.

**Festivalın statusu**
7-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı 2-6 oktyabr 2024-cü il tarixlərində Bakıda keçiriləcək.

**Festivalın məqsədləri**
ANİMAFİLM festivalı aşağıdakı məqsədləri qarşısına qoyub:

1. Azərbaycanda animasiya sənətinin inkişafına dəstək.
2. Animasiya filmlərinin nümayişi və animasiya kinosu üzrə yerli və xarici peşəkarlar arasında təcrübə mübadiləsi üçün platforma yaratmaq.
3. Yeni Azərbaycan animasiya filmlərinin yaradılmasını dəstəkləmək.
4. Potensial yerli və beynəlxalq müştərək məhsulların yaradılmasını təşviq etmək.

**Təşkilat komitəsi**
ANİMAFİLM festivalının hazırlanmasını və keçirilməsini festival direktorunun rəhbərlik etdiyi təşkilat komitəsi (bundan sonra "TK") gerçəkləşdirir. TK-nın tərkibi festival direktoru tərəfindən formalaşdırılır.

**Proqram**
Proqram TK tərəfindən müəyyənləşdirilir. Festivalın proqramına müsabiqə, müsabiqədənkənar, peşəkar və müşayiətedici proqramlar daxildir.

**Müsabiqə proqramı**
Müsabiqə proqramına aşağıdakı kateqoriyalar daxildir:

Milli kateqoriyalar:

1. Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi
2. Pitchinq-müsabiqənin ən yaxşı layihəsi

Beynəlxalq kateqoriyalar:

3. Ən yaxşı qısametrajlı animasiya filmi (30 dəqiqəyə qədər) - GRAND PRIX
4. Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi (30 dəqiqəyə qədər)

**Müsabiqədənkənar proqram**
Müsabiqədənkənar proqramı aşağıdakı bölmələrdən ibarətdir:

1. Tematik nümayişlər – bu bölmə ANİMAFİLM festivalının ana mövzusuna həsr olunur.
2. Retrospektivlər – festivalda dünyaca məşhur animasiya müəlliflərinin əsərlərinin nümayişləri olacaq.
3. Uşaq proqramı – bu bölmə uşaq auditoriyası üçün nəzərdə tutulmuş milli və xarici animasiya filmlərini təqdim edəcək.
4. Münsiflərin proqramı – bu proqram beynəlxalq münsiflər heyəti üzvlərinin filmlərinə baxmaq və onlarla şəxsən tanış olmaq üçün unikal şansdır.

**Peşəkar proqram**
Peşəkar proqramı aşağıdakı bölmələrdən ibarətdir:

1. Müasir animasiyanın gündəmdə olan məsələləri üzrə peşəkarlar görüşlər.
2. Ustad dərsləri, vörkşoplar və mühazirələr.

**Müşayiətedici proqram**
Müşayiətedici proqrama sərgilər, tamaşalar, konsertlər, yaradıcılıq gecələri və animasiya kino sənəti ilə bağlı olan digər tədbirlər daxil edilə bilər.

**Müsabiqə proqramında iştirak üçün ümumi şərtlər**
İştirakçı festivala məhdudiyyətsiz sayda iş göndərə bilər;

Festival bitməmiş layihələri müsabiqə proqramına qəbul etmir.

Seçim komissiyası festivala təqdim edilən işləri bu və ya digər proqram, kateqoriya və ya bölməyə müstəqil müəyyənləşdirmək və bu barədə iştirakçını əvvəlcədən xəbərdar etməmək hüququna malikdir;

Müsabiqə proqramının bütün filmləri orijinal dildə, Azərbaycan və ya ingilis altyazıları ilə nümayiş etdiriləcək.

**Müsabiqə proqramında iştirak üçün animasiya filmlərinin qəbul şərtləri**
Hər hansı filmin ANİMAFİLM festivalında iştirakı üçün müraciət 2024-cü il aprelin 30-dan 2024-cü il iyulun 1-nə kimi təqdim edilməlidir; 7-cı ANİMAFİLM festivalında iştirak üçün müraciətlər ən böyük festivallar platforması olan **FilmFreeway vasitəsilə qəbul edilir**; Film aşağıdakı şərtlərə uyğun olmalıdır:

1. Filmlər 1 yanvar 2023-cü il tarixindən sonra çəkilməlidir;

2. Filmin 50 %-indən çoxu animasiya olmalıdır. Filmdə istifadə edilən animasiya texnikalarına məhdudiyyət qoyulmur;
3. Bir film yalnız bir kateqoriyada iştirak edə bilər;
4. Müsabiqə filmlərinin müəllif hüquqları beynəlxalq hüquqla tənzimlənir. Animasiya filmini təqdim edən iştirakçı (rejissor, prodüser və ya digər səlahiyyətli şəxs) film üzərində hüququ olmasını və onun festivalda nümayişinə səlahiyyətli olduğunu bəyan edir;

**Müəllif hüquqları**

Festival iştirakçısı (rejissor, prodüser və ya digər səlahiyyətli şəxs) filmi ANİMAFİLM festivalının seçiminə göndərərkən TK-nın aşağıdakı hüquqlara malik olması ilə razılaşır:

1. Animasiya filminin ANİMAFİLM festivalının bütün tədbirlərində (ancaq oflayn) və digər yerli və xarici qeyri-kommersiya tədbirlərində məhdudiyyətsiz sayda açıq nümayişi ilə.
2. Animasiya filminin hissələrindən festivalın reklam çarxlarında, festivalın saytında və sosial şəbəkələrində (Facebook, Instagram, YouTube və s.), festival haqqında sənədli filmlərdə, festival haqqında televiziya reportajlarında və festival haqqında məlumatın yayılmasına istiqamətlənən digər audiovizual məhsulda istifadə ilə.
3. Animasiya filminin treyleri festivalın saytında və sosial şəbəkələrində (Facebook, Instagram, YouTube və s.) yerləşdirilməsi ilə.
4. Kadr və qəhrəmanlardan festivalın reklam materiallarında (festivalın kataloqunda, festivalın saytında, promo məhsullarda və s.) istifadə ilə.
5. Animasiya filminin azərbaycan və ingilis dillərinə altyazı yolu ilə tərcümə ilə.
6. Animasiya filminin festivalın arxivində saxlanılmasına.

**Seçim komissiyası**

TK animasiya və incəsənət sahəsində çalışan peşəkarlardan ibarət seçim komissiyasını təyin edir. TK üzvləri, həmçinin, seçim komissiyasının üzvləri ola bilərlər. Komissiya seçim üçün təqdim olunmuş işlərdən müsabiqə və digər proqramlara uyğun filmlər seçir. Seçim komissiyasının qərarları təkzibolunmazdır. Seçim komissiyası imtina səbəblərini izah və şərh etməməsi hüququnu özündə saxlayır.

**Münsiflər heyəti**

Münsiflər heyətləri TK tərəfindən seçilir.

“Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi” kateqoriyasından başqa, qalan kateqoriyalar üzrə qalibləri beynəlxalq münsiflər heyəti müəyyən edir;

“Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi” müsabiqəsinin qalibini uşaq münsiflər heyəti müəyyən edir.

“Tamaşaçı seçimi”nin qalibi festival nümayişləri zamanı tamaşaçı səsverməsinin nəticələri üzrə müəyyənləşdirilir;

Səsvermə ancaq müsabiqə proqramına daxil olunan filmlər arasında olur. Səsvermədə festivalın TK-sı, seçim komissiyası, münsiflər heyəti, festivalın komandası, könüllülər və festivalın bütün qonaqları, iştirakçılar və tamaşaçılar iştirak edə bilərlər.

ANİMAFİLM festivalının müsabiqə proqramına daxil edilmiş animasiya filmlərinin yaradılmasında iştirak etmiş şəxslər, festivalın TK və seçim komissiyasının üzvləri münsiflər heyətinin tərkibinə daxil edilə bilməz.

TK və seçim komissiyası münsiflərin müzakirələrində iştirak edə bilsələr də, səsvermədə iştirak hüququna malik deyillər.

**Mükafatlar**
Hər nominasiya üzrə ən yaxşı filmə "Qızıl qayıq" və pul mükafatı nəzərdə tutulub:

Milli kateqoriyalar:

1. Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi
2. Pitchinq-müsabiqənin ən yaxşı layihəsi

Beynəlxalq kateqoriyalar:

3. Ən yaxşı qısametrajlı animasiya filmi - GRAND PRIX
4. Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi

Tamaşaçı seçimi müsabiqəsinin nəticələrinə əsasən "Tamaşaçı rəğbəti mükafatı" təqdim olunur. Səslərin hesablanması festival TK-sının rəhbərliyi ilə həyata keçirilir;

7-cı ANİMAFİLM festivalı sponsorlara öz mükafatlarını təsis etmək imkanı verən hüququ təmin edə bilər.

**Ümumi müddəalar**
Bu reqlament 2023-ci ilin sentyabrın 10-da Azərbaycan və ingilis dillərində tərtib edilib.

ANİMAFİLM festivalında iştirak bu reqlamentdə ifadə edilmiş şərt və qaydaları sözsüz qəbul etməyi nəzərdə tutur. Festivalın hazırlıq və keçirilmə dövründə yaranan istənilən sual və mübahisələr festivalın təşkilatçısı tərəfindən Azərbaycan Respublikasında fəaliyyətdə olan qanunvericiliyə uyğun müvafiq qaydada həll ediləcək.